# AZƏRBAYCANDA XÜSUSİ MÜHAFİZƏ OLUNAN TƏBİƏT ƏRAZİLƏRİNİN İNKİŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

**Əläddin Eyvazov*, Elşad Əsgərov**

*AR ETN Zoologiya İnstitutu, Bakı*
**info@zoology.science.az*

Azərbaycanda Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin (XMOTƏ) tarixi hələ çar Rusiyası dövrlərinə gedib çıxır. Belə ki, Qafqazda ilk dəfə olaraq 1910-cu ildə Ellər oyuğu dağının ətəyindəki Eldar şamı (*Pinus eldarica*) meşəsi mühafizə altına alınmışdır. Bir il sonra Rusiya Coğrafiya Cəmiyyətinin tərkibində Qafqaz bölməsi yaradılmış və ondan sonra yeni təbiət kompleksləri qorunmağa başlanmışdır. 1914-cü ildə Yelizavetpol quberniyasında (indiki Gəncə) Bozdağların ətəyində arid meşələr qoruq elan edilmişdir. Həmin qoruq hal-hazırda Turyançay qoruğu adı ilə mühafizə işlərini davam etdirir. XMOTƏ-nin növbəti inkişafı sovet dövrünə təsadüf edir. Azərbaycanda sovet hökuməti tərəfindən ilk olaraq 1925-ci ildə Göygöl qoruğu elan olunmuşdur. Qoruq dağ göllərini və onların ətrafındakı meşələri əhatə etmişdir. İkinci dünya müharibəsinə qədər çox mühüm təbiət ərazilərində daha 2 qoruq yaradılmışdır – Qızılağac və Zaqatala qoruqları. Qızılağac qoruğu köçəri quşların köç yolunun üstündə yerləşir və burada yüz minlərlə quş qışlayır və ya köç üstündə istirahət edir. Zaqatala qoruğu çox əhəmiyyətli dağ meşələrini və oraya məxsus zəngin faunanı mühafizə edir.

Azərbaycanda XMOTƏ-nin növbəti inkişaf dövrü ötən əsrin 60-70-ci illərinə təsadüf edib. Həmin dövrdə 3 qoruq, 13 yasaqlıq və yüzlərlə təbiət abidəsi elan edilmişdir. O dövrdə kənd təsərrüfatının ekstensiv inkişafından təbiət ərazilərini qorumaq üçün bu XMOTƏ-lər xüsusi rol oynamışdır. Sovet quruluşu dağıldıqdan bir müddət sonraya kimi yeni XMOTƏ-lərin yaradılması dayanmışdır. Həmin dövr

ölkəmiz həm iqtisadi böhran yaşayırdı, həm də mənfur qonşular tərəfindən müharibəyə cəlb edilmişdir. Ümummilli Liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasından sonra ölkəmizdə həm siyasi, həm iqtisadi stabillik yaranmağa başlamışdır. Getdikcə artan iqtisadi gücümüz də diqqəti təbiətin mühafizəsinə yönəltməyə və yeni XMOTƏ-lər yaratmağa imkan vermişdi. Bu dəfə ölkəmiz üçün yeni olan XMOTƏ kateqoriyası – milli parklar yaradılmağa başlamışdı. Qoruqlar ciddi mühafizə rejimli ərazilər olduğu üçün əhalinin ora daxil olması qadağandır. Milli parklarda yerli əhali, turistlər təbiət ərazilərinə müəyyən olunmuş cığırlarla daxil olur, təbii gözəlliklərdən zövq alır, müəyyən edilmiş yerlərdə təbiət qoynunda istirahət edirlər.

Azərbaycanda ilk milli parklar 2003-cü ildən yaradılmağa başlanmışdır. Bu gün artıq ölkəmizdə 10 milli park, 10 qoruq və 24 yasaqlıq mövcuddur. Hazırda Azərbaycan üçün yeni olan bir Biosfer rezervatı yaradılmaqdadır. Zaqatala-Balakən bölgəsini əhatə edəcək bu rezervat yerli əhali üçün ekoloji məhsul istehsal edərək geniş bazarlara çıxış etmək və iqtisadi gəlir götürmək imkanları əldə edəcəkdir.

Respublikamızda daha 2 milli parkın yaradılması işləri yekunlaşmaq üzrədir. Beləliklə, ötən əsrin sonundakı dövr ilə müqaisədə ölkəmizdəki XMOTƏ-lərin ümumi sahəsi iki dəfədən çox artmışdır. Heydər Əliyevin ölkəmizdə əsasını qoyduğu milli parklar proqramı öz bəhrəsini verməkdədir.